AZƏRBAYCAN RESPUBLIKASI TƏHSIL NAZIRLIYI
AZƏRBAYCAN DÖVLƏT IQTISAD UNIVERSITETI

«BANK IŞI» KAFEDRASI

ALI MƏKTƏBLƏRIN BAKALAVR PİLLƏSİNDƏ TƏHSİL ALAN TƏLƏBƏLƏR ÜÇÜN

# «MALİYYƏ, PUL TƏDAVÜLÜ VƏ KREDİT»

**fənni üzrə tədris**

# P R O Q R A M I

**Azərbaycan Dövlət İqtisad Universitetinin «Bank işi» kafedrasının 09 iyul 2013 – ci il tarixli № 13 saylı iclas protokolu ilə təsdiq olunmuşdur.**

BAKI - 2014

**Elmi redaktor:** **İ.e.d., prof. Məmmədov Z.F.**

**Tərtib edənlər:** **i.e.d. Ş.Ə.Abdullayev**
**müəllim A.T. Hüseynova**

**Rəyçilər:** **İ.e.n., prof. Rzayev R.M.**
**İ.e.n., prof. Kərimov A.M.**
**İ.e.n, dos.Qəmbərov F.**

## «MALİYYƏ, PUL TƏDAVÜLÜ VƏ KREDİT»

### fənninin saat şəbəkəsi

| № | Mövzuların adı | Auditoriya dərsləri | |
|---|---|---|---|
| | | Mühazirə | məşğələ |
| 1. | Pulun mahiyyəti, funksiyaları, növləri və rolu | 2 | 2 |
| 2. | Pul tədavülü və pul hesablaşmaları | 4 | 2 |
| 3. | Pul sistemi | 2 | 2 |
| 4. | İnflyasiya | 2 | 2 |
| 5. | Maliyyənin mahiyyəti, funksiyaları və rolu | 2 | 2 |
| 6. | Maliyyə sistemi və onun təkamülü | 2 | 2 |
| 7. | Dövlət və bələdiyyə maliyyəsinin nəzəriyyəsi | 2 | 2 |
| 8. | Dövlət büdcəsi və büdcədənkənar fondların mahiyyəti | 4 | 2 |
| 9. | Sığorta fəaliyyətinin nəzəri əsasları və təşkili | 2 | 2 |
| 10. | Kreditin mahiyyəti, funksiyaları, növləri və iqtisadiyyatda rolu | 4 | 2 |
| 11. | Kredit və bank sistemi, onların elementləri | 4 | 2 |
| 12. | Mərkəzi Bankın fəaliyyətinin əsasları | 2 | 2 |
| 13. | Kommersiya banklarının və ixtisaslaşdırılmış kredit təşkilatlarının fəaliyyətinin əsasları | 5 | 2 |
| 14. | Qiymətli kağızlar və onların bazarı | 4 | 2 |
| 15. | Beynəlxalq valyuta-kredit və maliyyə münasibətləri | 4 | 2 |
| | Cəmi: | 45 | 30 |

# G İ R İ Ş

«Maliyyə, pul tədavülü və kredit» fənninin proqramında yer alan mövzular gündəlik həyatda dovlət və ictimaiyyət tərəfindən ən çox müzakirə və şərh edilən mövzulardır.

«Maliyyə, pul tədavülü və kredit» fənninin dərs proqramında: pulun mahiyyəti, funksiyaları, növləri və rolu, pul tədavülü və pul hesablaşmaları, pul sistemi, maliyyənin mahiyyəti, funksiyaları və rolu, maliyyə sisteminin həlqələri və təkamülü, sığorta fəaliyyətinin nəzəri əsasları və təşkili, kreditin mahiyyəti, funksiyaları, növləri və iqtisadiyyatda rolu, kredit və bank sistemi, Mərkəzi Bankın fəaliyyətinin əsasları, kommersiya banklarının fəaliyyətinin əsasları, qiymətli kağızlar və onların bazarı, beynəlxalq valyuta, kredit və maliyyə münasibətləri kimi mövzular öyrəniləcək və müzakirə olunacaqdır.

«Maliyyə, pul tədavülü və kredit» fənninin tədrisində əsas məqsəd – iqtisadi münasibətlər və onun tərkib hissəsi olan maliyyə-kredit münasibətləri sisteminin respublikada yenidən qurulduğu, əmtəə-pul münasibətləri və pulun rolunun artdığı, ikipilləli bank sisteminin formalaşdığı, kommersiya banklarının geniş şəbəkəsinin yarandığı bir şəraitdə mütəxəssislərə yeni proses və meylləri təhlil etmək bacarığını öyrətmək və izah etməkdir.

«Maliyyə, pul tədavülü və kredit» fənninin proqramı, eyni zamanda, beynəlxalq səviyyədə əsas iqtisadi qanunauyğunluqların təhlilini, valyuta bazarında müxtəlif əməliyyatların aparılması mexanizmini, xarici ticarətin kreditləşdirilməsi metodlarını və s. öyrənir.

«Maliyyə, pul tədavülü və kredit» fənninin tədrisi bazar iqtisadiyyatına keçid şəraitində həyatın bütün sahələrində baş verən iqtisadi yeniliklərin öyrənilməsi baxımından da əhəmiyyətlidir.

## Mövzu 1. Pulun mahiyyəti, funksiyaları, növləri və rolu

Pulun yaranmasının subyektiv və obyektiv səbəbləri. Əmtəənin ziddiyyətləri və dəyərin ekvivalent formasının xüsusiyyətləri. Pul ümumi dəyər ekvivalenti kimi. Pul əmtəəsinin spesifikası. Pulun meydana gəlməsi. İqtisadi sistemlərin inkişaf mərhələləri – barter və pul iqtisadiyyatı.

Pulun formaları və növlərinin təkamülü. Əmtəə pulları və onların növləri. Pul əmtəəsi rolunda metalın möhkəmlənməsinin tarixi səbəbləri. Tamqiymətli pullar, onların təbiəti, növləri, xassələri. Sikkə gəliri. Tamqiymətli olmayan pullar, onların növləri, formaları və xassələri. Kağız pullar, onların meydana gəlməsinin səbəbləri. Kredit pullar. Qızılın sikkəsizləşməsi.

Pulun real və nümayəndəlik dəyəri. Pulun mahiyyətinin təzahür formaları.

Pulun funksiyaları. Pulun dəyər ölçüsü funksiyası, qiymət miqyası, hesab pulları. Metal pulların tədavülü şəraitində pulun dəyər ölçüsü funksiyasına xas olan başlıca xüsusiyyətlər.

Tədavül vasitəsi funksiyası, onun təyinatı və xüsusiyyətləri. Pulun tədiyyə vasitəsi funksiyasının tədavül vasitəsi funksiyasından fərqi. Azərbaycan şəraitində pulun tədavül vasitəsi funksiyasının reallaşdırılması.

Pulun tədiyyə vasitəsi funksiyası. Bazar münasibətlərinin formalaşdığı şəraitdə tədiyyə vasitəsi funksiyasının rolunun artması. Müasir dövrdə pulun tədiyyə vasitəsi funksiyasının reallaşmasının xüsusiyyətləri.

Pulun yığım funksiyası, onun yaranma zərurəti. Pulun dəfinə yaratma vasitəsi kimi istifadə olunduğu tarixi dövr. Pul yığımının növləri. Qızılın demonetarizasiyaya uğraması səbəbləri, tarixi gedişi və müasir şəraitdə qızılın iqtisadi rolu. Qızıl ehtiyatlarının təyinatı. Pul əmanətləri və yığımlarının pul tədavülünün təşkilində rolu. İnflyasiya şəraitində pul yığımlarının təşkili formaları və xüsusiyyətləri.

Dünya pulu funksiyası. Dünya pulu funksiyasında pulun rolu, dünya pulu funksiyasının inkişaf mərhələləri, bu funksiyanın müasir şəraitdə həyata

keçirilməsinin xüsusiyyətləri. Dünya pulunun funksional formaları: SDR, EKYU, AVRO. Onlara xas olan xüsusiyyətlər.

## Mövzu 2. Pul tədavülü və pul hesablaşmaları

Pul tədavülü, onun təşkili prinsipləri və quruluşu. Pul emissiyası, onların formaları və institusional quruluşu. Mərkəzi Bankın nəğd pul emissiyasındakı rolu. Banknot emissiyasının qaydası və təminatı. Pul multiplikatoru. Pul aqreqatları. Pulun dövretmə sürəti və onu müəyyən edən amillər.

Pul tədavülü qanunları. İqtisadiyyatın pula olan tələbatı və tədavülə pulun faktiki daxil olması arasındakı tarazlığın əhəmiyyəti. Pula tələb və pul təklifi. Pulun tədavül sürətinin ğöstəriciləri və ona təsir edən amillər.

Nəğd və nəğdsiz pul emissiyasının qarşılıqlı əlaqəsi. Nəğdsiz pul dövriyyəsinin xarakteristikası. Nəğdsiz hesablaşmalar sisteminin təşkili prinsipləri və ünsürləri. Nəğdsiz hesablaşmaların formaları.

Ödəniş tapşırıqları, onların rekvizitləri, tətbiqi sferaları. Çeklərin növləri: onların tətbiqi sferaları, sənəd dövriyyəsi. Akkteditivin növləri: tətbiqi sferaları, sənəd dövriyyəsi. Veksel – universal hesablaşma – kredit aləti kimi. İnkasso üzrə hesablaşmalar.

Nəğd hesablaşmaların mahiyyəti. Nəğd-pul dövriyyəsinin təşkili prinsipləri və əsasları. Bankda acılan hesabların növləri və onların açılması qaydası. Nəğd pulun banka təhvil verilməsi üsulları. Müəssisə və təşkilatlarda kassa limiti.

Əhalinin gəlirlərinin başlıca kanalları. Bankların kassa dövriyyələrinin proqnozlaşdırılması.

## Mövzu 3. Pul sistemi

Pul sisteminin mahiyyəti və məzmunu. Pul sisteminin təşkilinin obyektiv və subyektiv şərtləri. Pul sisteminin ünsürləri. Pul sisteminin funksiyaları. Pul sisteminin təşkili prinsipləri. Pul siseminin tarixi təkamülü və tipləri. Metal pul tədavülü sistemi. Bimetallizmin mahiyyəti və növləri. Monometallizmin mahiyyəti və növləri. Qızıl monometallizmin bərqərar olması səbəbləri və inkişaf mərhələləri. Qızıl sikkə standartının səciyyəvi xüsusiyyətləri. Qızıl külçə və qızıl deviz standartlarının mahiyyəti.

Kağız və kredit pullarının dövriyyəsinə əsaslanan müasir pul sistemlərinin xarakterik cəhətləri. Pul nişanlarının növləri və onların emissiyası. Pulun alıcılıq qabiliyyəti və onun sabitliyinin təmin edilməsi. Pul sisteminə mərkəzləşdirilmiş rəhbərlik.

Bazar iqtisadiyyatının pul sistemi. Azərbaycan Respublikasının pul sistemi. İnkişaf etmiş ölkələrin müasir pul sistemi.

## Mövzu 4. İnflyasiya

İnflyasiyanın mahiyyəti, təzahür formaları və onu doğuran köklü səbəblər. İnflyasiyanın amilləri. İnflyasiyanın növləri, tipləri və formaları. İnflyasiyanın sosial-iqtisadi nəticələri və onun nizamlaşdırılması üsulları.

İnflyasiyanın səviyyəsinin ölçülməsi. İnflyasiyaya qarşı siyasət. Pul islahatlarının mahiyyəti və növləri, onların aparılması metodları.

Azərbaycan Respublikasında inflyasiya proseslərinin səciyyələndirilməsi və xüsusiyyətləri. İnflasiyanın ölkədəki sosial-iqtisadi vəziyyətə təsiri.

İnflyasiya mexanizminə nəzəri baxışlar.

## Mövzu 5. Maliyyənin mahiyyəti, funksiyaları və rolu

Maliyyənin mahiyyəti və zəruriliyi. Maliyyənin yaranma tarixi və onun inkişaf mərhələləri. İlkin kapitalın formalaşmasında dövlət maliyyəsinin rolu. Maliyyənin iqtisadi münasibətlər sistemində yeri. Maliyyənin başqa iqtisadi kateqoriyalarla qarşılıqlı əlaqəsi.

Maliyyənin funksiyaları. Bölgü və nəzarət funksiyaları. Maliyyənin milli gəlirin bölgüsündə iştirakı. İqtisadiyyatın maliyyə vasitəsilə tənzimlənməsi, nizamlanması və sabitləşdirilməsi.

Maliyyənin nəzarət funksiyası. Maliyyənin nəzarət funksiyasının mahiyyəti, rolu və əhəmiyyəti. Bölüşdürücü və nəzarət funksiyalarının qarşılıqlı əlaqəsi.

Maliyyənin əsas prinsipləri. Maliyyənin vahidlik, balanslaşma, məqsədli təyinat, diferensiallaşma, strateji yönüm prinsipləri.

Maliyyənin xüsusiyyətləri və dövlətin sosial-iqtisadi vəzifələrinin yerinə yetirilməsində onun rolu.

## Mövzu 6. Maliyyə sistemi və onun təkamülü

Maliyyə anlayışı və quruluşu. Maliyyə sisteminin subyektləri və obyektləri. Maliyyə sisteminin həlqələrinin xarakteristikası. Maliyyə sisteminin mərkəzləşdirilmiş və qeyri mərkəzləşdirilmiş həlqələri. Maliyyə sisteminin təşəkkülü və inkişafı.

Maliyyə sisteminin mahiyyəti, sferaları və həlqələri. Maliyyə sisteminin həlqələrinin vəzifələri. Maliyyə sisteminin inkişaf mərhələləri.

Müəssisə, idarə və ictimai təşkilatların maliyyəsi.

Maliyyə – iqtisadi stimullaşma aləti kimi. Maliyyə resurslarının, investisiyaların istifadəsinin istiqamətləri. Maliyyə resurslarının mahiyyəti,

tərkibi və quruluşu. Xüsusi maliyyə güzəştləri və onlardan istifadənin zəruriliyi. Mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş maliyyə resursları.

## Mövzu 7. Dövlət və bələdiyyə maliyyəsinin nəzəriyyəsi

Dövlət və bələdiyyə maliyyəsinin ümumi nəzəri əsasları. Dövlət və bələdiyyə maliyyəsinin iqtisadi məzmunu və funksiyaları. Dövlət maliyyəsinin quruluşu. Bələdiyyə maliyyəsinin xarakterik əlamətləri. Dövlət və bələdiyyə maliyyəsinin əsas prinsipləri.

Dövlət maliyyəsinin mahiyyəti və əhəmiyyəti. Dövlət büdcəsi və onun əhəmiyyəti. Dövlət müəssisələrinin maliyyəsi. Büdcədənkənar dövlət fondları, onların yaranması və istifadə edilməsi qaydası. Dövlət krediti və onun formaları. Dövlət gəlirləri və onların əsas mənbələri. Dövlət gəlirlərinin tərkibi. Dövlət sektorunda gəlirlər.

Dövlət maliyyəsinin fəaliyyəti prosesi. Dövlət gəlirlərinin əsasını təşkil edən vergilər və onların təsnifatı.

Dövlət xərcləri və onların məqsədi. Sosial-iqtisadi fondlar və onların yaranmasının zəruriliyi. Dövlət xərclərinin təsnifləşdirilməsi.

Bazar iqtisadiyyatı şəraitində dövlət maliyyəsinin təkmilləşdirilməsi.

Bələdiyyə maliyyə anlayışı. Bələdiyyə maliyyəsinin xarakteristikası. Bələdiyyə maliyyəsininin formalaşdırılması və istifadəsi prinsipləri.

Bələdiyyə maliyyəsinin hüquqi əsasları. Maliyyə sistemində bələdiyyə maliyyəsinin rolunun artırılması istiqamətləri.

## Mövzu 8. Dövlət büdcəsi və büdcədənkənar fondların mahiyyəti

Büdcənin mahiyyəti, təşəkkülü və formalaşmasının nəzəri əsasları. Dövlət büdcəsinin mahiyyəti və zəruriliyi.

Dövlət büdcəsi haqqında AR-nın Qanunu. Dövlət büdcəsinin sosial-iqtisadi mahiyyəti. Dövlət büdcəsi – dövlət maliyyə planı kimi.

Dövlət büdcənin funksiyaları. Bölgü funksiyası, nəzarət funksiyası.

Dövlət büdcəsinin təşkili prinsipləri. Ümumilik prinsipi, vahidlik prinsipi. Dövlətin gəlir və xərclərinin bir mərkəzdən proqnozlaşdırılmasının məqsədi. Dövlət büdcəsinin möhkəmliyi.

Büdcə kəsiri və onun səbəbləri. Büdcə kəsirinin sosial-iqtisadi nəticələri və onların aradan qaldırılılması yolları.

Büdcənin nizamlaşdırılması və onların gəlir və xərclərinin təmin edilməsi formaları və metodları.

Büdcədənkənar fondların mahiyyəti, təyinatı və ölkənin sosial-iqtisadi inkişafında rolu. Büdcədənkənar fondların idarə olunması. Büdcədənkənar fondların maliyyə sisteminin başqa həlqələri ilə qarşılıqlı əlaqəsi.

Dövlət və bələdiyyə büdcədənkənar fondların vəzifələri. Büdcədənkənar fondların təşkilinin zəruriliyi.

Dövlət və bələdiyyə büdcədənkənar fondların təsnifatı. Sosial və iqtisadi təyinatlı büdcədənkənar fondlar.

Pensiya fondu, onun təşkili və istifadəsi qaydası. Pensiya fonduna daxil olan gəlirlərin tərkibi. Pensiya fondundan maliyyələşən xərclər.

Sosial sığortanın mahiyyəti və əhəmiyyəti. Sosial sığortanın funksiyaları. Sosial sığortanın vəzifələri. Sosial sığorta fondunun təşkili və istifadəsi qaydası. Sosial sığorta fonduna daxil olan gəlirlər. Sosial sığorta fondunun xərclərinin istiqamətləri.

Tibbi sığorta fondu. Tibbi sığortanın məqsədi və vəzifələri. İcbari tibbi sığorta fondunun təşkili və istifadəsi qaydası. Könüllü və məcburi sığortanın xüsusisiyyətləri.

## Mövzu 9. Sığorta fəaliyyətinin nəzəri əsasları və təşkili

Sığorta işinin nəzəri əsasları. Sığorta təsnifatı və onun məzmunu. Sığorta sisteminin infrastrukturu və fəaliyyətin mexanizmi. Dövlət sığorta nəzarətinin rolu və funksiyaları. Sığorta fəaliyyətinin maliyyə əsasları.

Sığortanın meydana gəlməsi. Sığortanın sosial-iqtisadi mahiyyəti və zəruriliyi. Sığortanın məqsəd və vəzifələri. Sığortanın funksiyaları. Sığorta fondunun yaradılması və istifadə metodları.

Sığorta obyekti və subyekti. Sığorta obyektləri üzrə təsnifləşdirmə. Sığorta tarifi. Sığorta müddəti. Sığorta riski. Sığorta aktı. Sığorta zərəri.

Sığortanın hüquqi əsasları. Sığortada iştirak edən tərəflər arasında yaranan hüquqi münasibətlər. Sığorta fondunun yaradılması və istifadəsi prosesini tənzimləyən hüquqi münasibətlər.

Müasir şəraitdə sığortanın təşkili xüsusiyyətləri. Sığorta bazarının atributları. Sığorta bazarının satıcı və alıcıları.

Sığorta fəaliyyətinin dövlət tənzimlənməsi.

Müasir şəraitdə sığorta işinin təkmilləşdirilməsi istiqamətləri. Sığortanın formalarının, sahələrinin və növlərinin mahiyyəti. Sığortanın formaları. Sığortanın könüllü və məcburi formaları. Məcburi sığortanın əsas prinsipləri. Məcburi sığortaya aid edilən obyektlər.

Könüllü sığortanın əsas prinsipləri. Sığortada könüllü iştirak.

Əmlak sığortası, onun mahiyyəti. Sosial və şəxsi sığorta. İş fəaliyyətinin sığortalanması. Pensiyaların sığortalanması. Vətəndaşların sığortasının növləri. Tikintinin sığortalanması. Ev əmlakının sığortası. Sosial sığortanın növləri. Yaşa görə pensiya sığortası. Əllilik üzrə sığorta. Ailə başcısının itirməyə görə sığorta. İş qabiliyyətinin sığortalanması.

Yüklərin sığortlanması. Kənd təsərrüfatı məhsullarının sığortalanması.

Şəxsi sığorta. Şəxsi sığortanın mahiyəti.

Uşaqların sığortalanması. Nikahın sığortalanması. Bədbəxt hadisələrdən sığorta.

## Mövzu 10. Kreditin mahiyyəti, funksiyaları, növləri və iqtisadiyyatda rolu

Kreditin mahiyyəti. Kredit – iqtisadi kateqoriya kimi. Kreditin xarakteristikası. Kreditin strukturu. Kreditin subyektləri. Kreditin funksiyaları və onların səciyyələndirilməsi. Kreditin hərəkəti mərhələləri və onun qanunları. Kreditin prinsipləri.

Kreditin formaları. Kreditin əmtəə və pul formaları. Kommersiya kreditinin mahiyyəti, obyekti, subyektləri, məqsədləri, zəruriliyi və tətbiqi sferası. Kommersiya kreditinin xüsusiyyətləri. Azərbaycanda kommersiya kreditinin və veksel tədavülünün bərpası zərurəti və inkişafı vəziyyəti.

Bank krediti, onun mahiyyəti, üstünlükləri. Bank kreditinin xüsusiyyətləri. Pul borcu və kapital borcu. Kommersiya krediti ilə bank krediti arasındakı bağlılıq və fərqləndirici cəhətlər. Azərbaycanda bank kreditinin rolu.

Dövlət krediti, onun məqsədli xarakteri və subyektləri. Dövlət kreditinin dövlət istiqrazlarından fərqi. Dövlət itiqrazlarının növləri. Müasir iqtisadiyyatda dövlət kreditinin rolu. Azərbaycanda dövlət kreditinin vəziyyəti və inkişaf meyilləri.

İstehlak krediti, onun mahiyyəti, fərqləndirici xüsusiyyətləri və məqsədi. İstehlak kreditinin əsas formaları. İstehlak kreditinin verilməsi qaydası. Müasir bazar iqtisadiyyatında istehlak kreditinin rolu. Azərbaycan Respublikasında istehlak kreditinin təcrübəsi, durumu və inkişafının zəruriliyi.

İpoteka krediti, onun mahiyyəti, təyinatı və verilmə qaydası. İpoteka kreditinin iqtisadiyyatdakı rolu.

Beynəlxalq kredit, onun mahiyyəti. Beynəlxalq kreditin funksiyaları, əsas formaları və növlərinin ümumi səciyyələndirilməsi. Beynəlxalq kreditin rolu.

Kreditin növləri. Kreditin iqtisadiyyatda rolu. Azərbaycanda kredit münasibətdərinin müasir vəziyyəti və islahatlar dövründə inkişaf meyilləri.

## Mövzu 11. Kredit və bank sistemi, onların elementləri

Kredit sistemi anlayışı. Kredit sisteminin quruluşu və elementləri. Kredit sisteminin tipləri.

Bank sistemi, anlayışı və təsnifatı. Bank sisteminin təşkili və institusional həlqələri. Bank sisteminin tarixi inkişafı. Azərbaycanda bank sisteminin fəaliyyətinin hüquqi əsasları. Azərbaycan Respublikasının bank sistemi: Azərbaycan Respublikasının Mərkəzi Bankı və kredit təşkilatları. Azərbaycanda kredit təşkilatlarının strukturu: bank, xarici bankın yerli filialı və ya bank olmayan kredit təşkilatı.

Azərbaycanda müasir bank sisteminin xarakteristikası. Azərbaycan bank sektorunun icmali. Azərbaycan bank sektorunun kəmiyyət və keyfiyyət göstəriciləri. Azərbaycan bank sisteminin aktiv strukturu. Azərbaycan bank sektorunun kapitalı. Azərbaycan bank sektorunun fəaliyyətinin maliyyə göstəriciləri.

Beynəlxalq bank işi. Beynəlxalq bankcılığın işləmə mexanizmi.

Bank sistemində böhran anlayışı və tətbiq olunan antiböhran siyasəti.

## Mövzu 12. Mərkəzi Bankın fəaliyyətinin əsasları

Mərkəzi Bankın mahiyyəti və yaranmasının zəruriliyi. Mərkəzi Bankın fəaliyyəti əsasları. Mərkəzi Bankın funksiyaları, məqsəd və vəzifələri. Mərkəzi Bankın əhəmiyyəti. Mərkəzi Bankın əməliyyatları. Mərkəzi Bankın təşkilatı quruluşu.

Mərkəzi Bankın pul-kredit siyasətinin iqtisadi və təşkilati əsasları. Pul-kredit siyasətinin metodları və alətləri. Pul-kredit siyasətinin iqtisadiyyatın tənzimlənməsində rolu.

Mərkəzi Bank hökümətin maliyyə agenti kimi.

Bank nizamlaşdırılması. Nəzarətin mahiyyəti və təyinatı. Bank nəzarəti sistemi.

Banklara sanksiyalar. Bankların ləğvi: qovuşma, birləşmə, iflas.

## Mövzu 13. Kommersiya banklarının və ixtisaslaşdırılmış kredit təşkilatlarının fəaliyyətinin əsasları

Kommersiya bankının xüsusiyyətləri. Kommersiya banklarının mahiyyəti, funksiyaları və fəaliyyət prinsipləri. Kommersiya banklarının bazar iqtisadiyyatındakı rolu və kredit sistemindəki yeri. Kommersiya banklarının növləri.

Kommersiya bankının əməliyyatlarının təsnifatı. Kommersiya banklarının passiv əməliyyatlarının strukturu və ümumi xarakteristikası. Nizamnamə və borc kapitalı. Cəlb olunmuş resurslar. Vəsaitlərin depozitlərə cəlb olunması yolları. Depozitlərin ənənəvi növləri və onların səciyyələndirilməsi. Depozit və əmanət sertifikatları. Azərbaycan kommersiya banklarının bank resuslarının formalaşmasının və quruluşunun xüsusiyyətləri.

Kommersiya banklarının aktiv əməliyyatlarının mahiyyəti. Bank aktivlərinin strukturu. Bankın kredit əməliyyatlarının növləri, onların xüsusiyyətləri. Bank kreditləşməsinin təşkili xüsusiyyətləri və formaları. Kreditləşmə metodları. Bankın kredit siyasəti. Kreditlərin verilməsi və geri qaytarılması qaydaları. Kreditlərin geri qaytarılmasının təminat formaları: girov, zəmanət, sığorta. Borc alanın kredit qabiliyyəti. Bankların faiz siyasəti. Faizlərin müəyyənləşdirilməsi və ödənilməsi qaydaları.

Kommersiya banklarının komisyon-vasitəçilik və trast əməliyyatlarının mahiyyəti, təsnifatı, növləri və xüsusiyyətləri. Lizinq. Lizinqin mahiyyəti və məzmunu. Lizinq sövdələşməsi və onun növləri. Faktorinq, onun mahiyyəti və

növləri. Faktorinq müqaviləsi. Trast xidmətlərinin məzmunu və növləri. Bankın plastik kartlarla əməliyyatları.

Banklararası informasiya sistemləri. Elektron hesablaşma sistemləri. Bankomatlar.

Kommersiya banklarının gəlirləri, xərcləri və mənfəəti. Kommersiya banklarının balansı. Azərbaycan Respublikasında kommersiya banklarının vəziyyəti.

İxtisaslaşmış banklar. İpoteka banklarının mahiyyəti, funksiyaları və kredit sistemində yeri. Qeyri-bank kredit təşkilatları, onların banklardan fərqi. Sığorta şirkətlərinin və pensiya fondlarının mahiyyəti və iqtisadiyyatda rolu. Maliyyə şirkətləri, onların mahiyyəti, funksiyaları və kredit sistemindəki yeri.

## Mövzu 14. Qiymətli kağızlar və onların bazarı

Qiymətli kağızlar anlayışı. Qiymətli kağızların mahiyyəti, təməl xassələri, təsnifatı. Korporativ qiymətli kağızlar.

Səhmin mahiyyəti, təsnifatı və onun növlərinin səciyyələndirilməsi. Səhmdar cəmiyyətləri. Səhmin nominal və bazar qiymətləri. Səhm məzənnəsinə təsir edən amillər.

İstiqrazların ümumi səciyyələndirilməsi. Korporativ istiqrazların mahiyyəti, təsnifatı və onların növlərinin səciyyələndirilməsi. İstiqrazların məzənnəsini müəyyən edən amillər.

Dövlət borc öhdəliklərinin növləri və dövlət istiqrazlarının onların arasındakı yeri. Bələdiyyə qiymətli kağızlar.

Qiymətli kağızlar bazarının əhəmiyyəti və quruluşu. İlkin bazar anlayışı, onun mahiyyəti, rolu və iştirakçıları. Qiymətli kağızların ikinci bazarı. Fond birjası, onun mahiyyəti, funksiyaları və rolu. Fond birjalarının təşkili xüsusiyyətləri və idarə olunması. Birja iştirakçıları. Azərbaycanda fond birjasının fəaliyyəti. Müasir şəraitdə qiymətli kağızların dördüncü bazarı.

Qiymətli kağızlar bazarının dövlət tənzimlənməsinin mahiyyəti, formaları və vəzifələri.

## Mövzu 15. Beynəlxalq valyuta-kredit və maliyyə münasibətləri

Beynəlxalq valyuta-kredit və maliyyə münasibətləri. Valyuta münasibətlərinin istehsal və ticarətlə qarşılıqlı əlaqəsi. Valyuta münasibətlərinin iqtisadi münasibətlər sistemindəki yeri. Valyuta pariteti və valyuta məzənnəsinin tarixi təkamülü və müasir vəziyyəti. Valyuta məzənnəsinə təsir edən amillər. Valyuta siyasəti və onun formaları.

Tədiyyə balansı anlayışı, onun əsas tərkib bölmələri. Tədiyyə balansına təsir edən amillər.

Valyuta məhdudiyyətinin mahiyyəti, məqsədləri və növləri. Valyuta klirinqləri. Valyuta dönərliyi anlayışı, onun növləri və tənzimlənməsi.

Beynəlxalq hesablaşmaların mahiyyəti və alətləri. Beynəlxalq hesablaşmaların formaları.

Beynəlxalq kreditin iqtisadi kateqoriya kimi mahiyyəti. Beynəlxalq kreditin forma və növlərinin təsnifatı. Beynəlxalq kreditin funksiyaları. Beynəlxalq kreditin valyuta-maliyyə şərtləri. Müddətinə görə beynəlxalq kreditlər. Qısa, orta və uzunmüddətli kreditlər. Beynəlxalq kredit bazarları.

Beynəlxalq maliyyənin məzmunu, təsnifatı və təşkili prinsipləri. Beynəlxalq maliyyə münasibətlərinin mahiyyəti. Beynəlxalq maliyyə bir tarixi kateqoriya kimi. İlkin ticarətin meydana gəlməsi. Qızıl və pul münasibətləri. Əmtəə-pul münasibətləri.

Beynəlxalq maliyyənin əsasları. Beynəlxalq maliyyə münasibətlərinin formaları.

Beynəlxalq valyuta-kredit və maliyyə təşkilatları, onların yaranma səbəbləri, məqsədləri, vəzifələri, fəaliyyət sahələri və rolu. Beynəlxalq Valyuta

Fondu. Dünya Bankı. Regional valyuta-kredit təşkilatları. Avropanın Yenidənqurma və İnkişaf Bankı.

Azərbaycan Pespublikasının beynəlxalq valyuta-kredit münasibətlərinin müasir vəzifələri və inkişaf perspektivləri.

**Ədəbiyyat**

1. «Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında» Azərbaycan Respublikasının Qanunu.

2. «Banklar haqqında» Azərbaycan Respublikasının Qanunu.

3. «Bank olmayan kredit təşkilatları haqqında» Azərbaycan Respublikasının Qanunu.

4. «Banklar haqqında normativ- hüquqi aktlar toplusu» // Elmi redaktor: Z.F. Məmmədov. Bakı, Qanun, 2009. 1092 s.

5. «Dövlət maliyyəsi normativ- hüquqi aktlar toplusu» // Elmi rəhbər: Z.F. Məmmədov. Bakı, Qanun, 2010. 1180 s.

6. «Dünya ölkələrinin Mərkəzi Bankları». AR MB Beynəlxalq əlaqələr departamenti. Bakı, 2009

7. Ə.M. Abbasov, Z.F. Məmmədov. «Bank işi və e-bankcılıq». Bakı, 2003.

8. Ş.Ə. Abdullayev, R.V. Əsgərova «Bank işi». Bakı, 2010.

9. M.M. Bağırov «Bank işi». Bakı, 2003.

10. R.A. Bəşirov «Bank işi». Bakı, 2007.

11. D.A. Bağırov, M.X.Həsənli, L.T. Mehdiyeva, T.T. Qurbanova «Maliyyə» Dərslik. Bakı, 2010

12. V.Z. Zeynalov «Maliyyənin əsasları» Bakı, 2008

13. N.R. Quliyev «Beynəlxalq maliyyə» Dərslik, Bakı, 2009

14. N.N. Xudiyev «Sığorta işi» Bakı, 2003

15. S.M. Məmmədov «Maliyyə» Dərslik, Bakı, 2009

16. Z.H. Ibrahimov «Pul, kredit və banklar» (suallara cavab). Bakı, 2009.

17. Z.F. Məmmədov «Finans iqtisadiyyatı». – Bakı: Qanun, 2003. - 375 c.

18. Z.F. Məmmədov «Pul , kredit və banklar». Dərslik. Bakı, 2010.

19. Z.F. Məmmədov «Dünya təcrübəsi kontekstində Azərbaycan iqtisadiyyatı». Bakı: Azərnəşr, 2008. 400c.

20. Z.F. Məmmədov «Beynəlxalq valyuta–kredit munasibətləri». Dərslik. - Bakı, 2008.

21. О.Е. Янин «Финансы, денежное обращение и кредит». Учебник

Москва. 2013. 251с.

22. О.В. Мотовилов, С.А. Белозеров «Банковское дело». Учебник Москва. 2014. 408с.

23. «Денежное обращение и банки». Учебник под ред. Г. Н. Белоглазовой Москва, 2003

24. З.Г. Ибрагимов «Генезис денежно - кредитной системы Азербайджана». Баку, 1997.

25. О.И. Лаврушин «Банковское дело». Изд: КноРус. 2008 г. 768 с.

26. З. Ф. Мамедов «Деньги, кредит, банки». Учебник. Бакı, 2008. 400 с.

27. «Международные валютно-кредитные и финансовые отношения». Учебник. Под ред. Л.Н. Красавиной. Москва. 2000

28. З. Ф. Мамедов «Банковская система Азербайджана // Мировая экономика и международные отношения». 2008. № 7.